QƏBƏLƏ SƏSİ

№ 1-2 (1-2)
Çərşənbə, 10 sentyabr 2025-ci il.
2025-ci ildən nəşr olunur

ictimai-siyasi qəzet

qebele-ih.gov.az
gabalanews@mail.ru
facebook: "Qəbələ səsi" qəzeti

# Azərbaycan - Çin strateji əməkdaşlığı möhkəm təməl üzərində qurulan əməkdaşlıqdır

## *Azərbaycanın Çinlə strateji tərəfdaşlığı yalnız uğur vəd edir*

Dünyanın siyasi və iqtisadi güclərindən biri, superdövlətlər sırasında olan Çin bu gün Cənubi Qafqazın lideri Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verir.

Bu, Prezident İlham Əliyevin Çinə səfərində keçirdiyi görüşlərdə, müzakirə olunan məsələlərdə və dünyanın tanınmış şirkətlərinin rəhbərləri ilə apardığı danışıqlarda bir daha təsdiqini tapdı.

Xatırladaq ki, bu il aprelin 23-də Pekində Prezident İlham Əliyevlə Çin Xalq Respublikasının Sədri Si Cinpin iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması ilə bağlı Birgə Bəyanatı imzalamaqla münasibətlərinin hansı səviyyəyə yüksəldiyini dünyaya bəyan etmişdilər.

Dörd ay sonra İlham Əliyevin yenidən Çinə işgüzar səfərə dəvət edilməsi və 4 gün müddətində Tiencin, Pekin şəhərlərində keçirilən mühüm tədbirlərdə iştirakı Azərbaycana və onun liderinə göstərilən böyük etimadın göstəricisidir.



Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə avqustun 30-dan sentyabrın 3-dək Çinə səfərinin xüsusi əhəmiyyəti oldu. Dövlət başçısı Tiencində keçiriləcək Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Sammitində və Çin xalqının yapon işğalçılarına qarşı Müqavimət müharibəsində, eləcə də Ümumdünya Faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş yubiley mərasimində iştirak etdi, mühüm görüşlər keçirdi.

Ümumiyyətlə, dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq yaratmaq prinsiplərini rəhbər tutan Azərbaycan hazırda Çin ilə də bütün istiqamətlərdə sıx əlaqələrə malikdir. Bu gün Azərbaycan və Çin arasında möhkəm təmələ söykənən tərəfdaşlıq münasibətləri, qarşılıqlı hörmətə, beynəlxalq hüquq və prinsiplərə əsaslanan diplomatik əlaqələr mövcuddur.

Prezident İlham Əliyev Çinlə əlaqələrin inkişafına xüsusi diqqət yetirir. 2003-cü ildən sonra dövlətimizin başçısı bir neçə dəfə Çinə rəsmi səfər edib. 2015-ci ilin dekabrında həyata keçirilən səfər zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında İpək yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu" imzalanıb. Bu sənəd ölkələrimizin əməkdaşlığında mühüm önəm daşıyır.

Son illərdə Azərbaycan-Çin arasında əlaqələrdə xüsusi canlanma yaşanır. 2022-ci ilin sentyabrında Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddə keçirilən sammiti zamanı Prezident İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında keçirilən görüşdə iki ölkə arasındakı münasibətlərin gələcək inkişaf istiqamətləri müəyyənləşdirilib. 2023-cü ilin əvvəlindən isə yüksəksəviyyəli ikitərəfli mübadilələrin yeni dalğası başlayıb, qarşılıqlı səfərlər davam edib.

2024-cü ildə Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində iyulun 3-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanname"nin imzalanması isə münasibətlərin getdikcə daha da inkişaf edəcəyini söyləməyə əsas verirdi. Sənəddə qeyd edilirdi ki, tərəflər strateji tərəfdaşlıq qurur, ikitərəfli münasibətlərin təməl prinsipləri olan qarşılıqlı hörmət, bərabərlik, etimad, qarşılıqlı dəstək, fayda və əməkdaşlıqdan çıxış edirlər. Tərəflər bir-birini prioritet və etibarlı tərəfdaş hesab edir və xarici amillərdən asılı olmayaraq, ikitərəfli münasibətlər üzrə siyasətlərini müstəqil şəkildə müəyyənləşdirirlər.

Bundan 9 ay sonra, 2025-ci il aprelin 23-də isə İlham Əliyevin Çinə dövlət səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" isə tərəflərin bir-birinə olan münasibətinin aynası oldu.

Sənəddə qeyd edilirdi ki, hər iki dövlət başçısı diplomatik münasibətlərin qurulmasından ötən 33 il ərzində Azərbaycan-Çin əlaqələrinin inkişafındakı nailiyyətləri yüksək qiymətləndirir. Liderlər hər iki ölkənin bir-birini prioritet təşkil edən, etibarlı və qarşılıqlı faydalı strateji tərəfdaş kimi nəzərdən keçirdiyini təsdiq edərək, qarşılıqlı siyasi etimadı daim möhkəmləndirməyə, qarşılıqlı dəstəyi gücləndirməyə, hər iki ölkənin xalqlarının mənafeyi naminə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını ifadə edərək, hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması barədə yekdilliklə qərar qəbul etdilər.

Ötən bir il müddətində həm siyasi, həm də iqtisadi-ticari münasibətlərdə özünü göstərən yüksəliş onu deməyə əsas verir ki, Azərbaycan-Çin strateji tərəfdaşlığı yalnız uğur vəd edir. Əlbəttə ki, bu səfərlər ikitərəfli və çoxtərəfli əməkdaşlığa təkan verməklə, hərtərəfli strateji tərəfdaşlıq münasibətlərini daha da gücləndirəcək.

Hazırda iki ölkə arasında əlaqələr müxtəlif sahələrdə yüksələn xətlə inkişaf edir. Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsinin həcmi 2024-cü ildə əvvəlki illə müqayisədə 20,7 faiz artaraq 3,744 milyard dollara çatıb. Digər tərəfdən, Çin xarici ticarət dövriyyəmizdə 7,9 faiz payla Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşıdır. İdxalımızın 17,7 faizi sözügedən dövlətin payına düşür.

Bu gün regionda nəqliyyat habına çevrilən Azərbaycan bir çox ölkələrin diqqətini cəlb edir. Çin mallarının Azərbaycan vasitəsilə Avropaya daha təhlükəsiz və daha tez müddətə çatdırılması dost ölkənin respublikamızla münasibətlərini şaxələndirməsini şərtləndirib. 2024-cü ildə Azərbaycan ilə Çin arasında tranzit daşımaların həcmi 378 min ton olub ki, bu da 2023-cü illə müqayisədə 86 faiz çoxdur. 2024-cü il ərzində Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta dəhlizlə 287 marşrut qatarı yola salınıb. Nəqliyyat dəhlizlərinin genişləndirilməsi və elektron xidmətlərdən daha çox istifadə edilməsi ilə bağlı işlər sürətlənib. "Qərb-Şərq" nəqliyyat dəhlizi ilə yanaşı, "Şimal-Cənub" xəttinin də ötürmə imkanları artırılır, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürmə potensialı 1 miyon tondan 5 milyon tona çatdırılır.

Əminliklə deyə bilərik ki, İlham Əliyevin Çinə işgüzar səfəri iki ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsinə müsbət impuls verəcək.

**«Azərbaycan»**